STAD
SANAL TÜRKOLOJİ ARAŞTIRMALARI DERGİSİ

# AĞBABA ŞİVƏSİNDƏ ƏDAT, MODAL SÖZLƏR VƏ NİDA

**Arzu BAYRAMOVA**[*]

**Özet**
Bu makalede Ağbaba lehçelerinde kullanılan konuşma parçaları (parçacık ve modal kelimeler) ve ünlemler hakkında bilgi verilmiştir.

**Anahtar Sözcükler**:
Ağbaba lehçeleri parçacık, modal kelimeler ve ünlem

**Abstract**
In this article, the parts of speech used in dialects Aghbaba (particle and the modal words) and were provided with information on the exclamation.

**Key Words**:
Aghbaba dialects particle, modal words and exclamation

Ədat. Ağbaba şivəsində işlədilən ədatlar ədəbi dildə işlənən ədatlardan bir o qədər də fərqlənmir, amma bəzi fonetik xüsusiyyətlər nəzərə çarpır. Bir qisim ədatlar isə ancaq Ağbaba şivəsində özünü göstərir. Məsələn: adı//adılı, cılız, hakin//hakı//həki//həkin; sakin, səki, sākin, səki; bəyəm//bəm; dana, tana, şirp, keşkəm//keşkə; -bı, -bi, -bu, -bü; yaman, ha, ki, kı, ku, kü//kın, kin, kun, kün və s.

Bunlara ayrılıqda diqqət yetirək.

1. gə(gəl), qo(qoy), gö(gör) ədatları. Bu ədatlar əsasən cümləyə arzu, dilək, xahiş, əmr, təkid məzmunu gətirir. Məsələn:
-Qo işimizi görəx' dana.
-Gə bu səfərdən əl çəx'.

2. a, ə ədatı. Bu ədat əsasən nida cümlələrində ifadəni qüvvətləndirir. Felin sərt formasında II şəxsin sonunda işlənir. Məsələn:
-Gəlsənə dərmana barabar gedəx'.
-Əzimin oxumaxdan gəldiyini daısına dēsənə.

3. ha, kı, ki, ku, kü (kin, kın, kun, kün) ədatları. Bu ədatlar ədəbi dildə işlənən ki ədatını fonetik variantlarıdır. Adlardan sonra gələrək müxtəlif məna çalarlıqları yaradır. Daha çox müəyyən bir sözü daha qabarıq nəzərə çarpır. Məsələn:
-Bu ku gəlif belə tərsdix' edir, başa tüşmürəm.
-Ha dedim, piçini şərqavışana qurtaram, qurtarammadım.

[*] Sumqayıt Dövlət Universiteti

O Tıntın Səlvər hər nə kin deir, yalandı.

4. ha//hə, ahan, dana ədatları. Bu ədatlar təsdiq və məhdudlaşdırma mənası ifadə edir. Məsələn:

-Belə ha deildi o, laf xarav oluf.

-Buna nə deyirsən hə, gözünnən gördünmü?

-Qapıyı ört dana soux bizi birtəhər elədi.

-Ahan işə tüşdüm, bu lotunun əlinnən.

5. Haşa, heş, adılı ədatları. İnkarlıq məzmununu şiddətləndirir. Məsələn:

-Haşa sənnən bu savet sədri laf quduruf, adamları dalıyır.

-Qardaşoğlu əsgərrix'dən qayıdıf, əmə adılı bizə üzüx'mür.

-Haşa sizdən, beycə bizim it bağı qırıf qaçıf, yaxşı kin heş kimə ziyan vermiyif.

-Heş getmirəm orya, nə dērsən?

6. bı, bi, bu, bü (mı, mi, mu, mü), bəm, yanı ədatları. Bu ədatlar sual cümləsinin məzmununu qüvvətləndirir. Məsələn:

-Get gör qardaşım irayonnan gəlifbi?

-Axşam o, aza yerində olufbu?

-Bəm onnar mənim işimi görüllər?

-Yanı maŋa nōluf, kimnən əysiyəm.

7. Hakın, hakı/həki ədatları. Ədatlar əsasən təsdiq məzmunu bildirir.

-Hakin mal doxdurunu yerində tafdım.

-Gözdəməx'dən bezdix', həki gəlif çıxdı.

8. həm, da, də ədatları. Əsasən tutduğu mövqedən asılı olmayaraq ifadəyə üstünlük verir.

-Ay uşax bir bura gə də.

9. budurana, odurana ədatları. Bu ədatlar əsasən mənanı dəqiqləşdiri. Məsələn:

-Budurana kış kapıyı kəsifdi.

-Odurana Xəmmədin oğlu inistutu qutarıf gəlif, doxdurxanada işdiyir.

10. keşkəm, təkin, nola ədatları. Bu ədatlar əsasən arzu, dilək mənaları ifadə edir.

-Keşkəm mən də indi cavan olaydım.

-Təkin həmməşə sən gələsən bu öyə (Q., B.).

11. -cılız, gənə ədatları. Əsasən məhdudlaşdırıcı ədat sayılır. Məsələn:

-Cılız mana bu çətin gələr kin, qanmıya-qanmıya hamıya axıl öyrədir.

-Gənə məni yalladır bu bacımoğlu.

Göründüyü kimi, Ağbaba şivəsində bu və ya digər ədatın daha çox fonetik variantları nəzərə çarpır. Ardıcıl olaraq nəzərdən keçirdiyimiz ədatlar özünəməxsus inkişaf yolu keçmişdir.

12. –cāz//cəz; -çığaz//çiyəz; -cıq, cik, - cuq, -cük; -ca, - cə; -cana, -cənə ədatları. Ağbaba şivəsində morfoloji əhəmiyyət kəsb edən əzizləmə, oxşama, kiçiltmə, mərhəmət, miskinlik bildirən –cāz//cəz; cığaz//ciyəz; cıg//cik, cug//cük

ədatları və rica, təkid, israr və əzizləmə bildirən –cāz//cəz, -ça//çə şəkilçi ədatları əsas və köməkçi nitq hissələri ilə işlədilərək müxtəlif məna çalarlıqları yaradır. Məsələn: yaxşı//yaxşıcana, azca//azcana.

a) İsimlərlə işlədilməsi.
-Qızcāzımın günü qara oluf.
-Gəncədən gələn bibimcə görsəydim.

b) Sifətlərdə işlədilməsi.
-Yaxşıcana paltar almışdım uşağa, əmə dar oldu.
-Qonşunun alaca bir inəyi varıydı, ama çox naxartana dēsən süddüydü.

c) Saylarda işlədilməsi.
-Bu uşaxların, ikicəzi bizdə olsaydı dərdini çəkəmməzdix'.
-Qannıcadan dörtcə litir bəzir aldım.

ç) Əvəzliklərdə işlədilməsi.
-Mənciəz onun dərdini nətər çəkim?
-Bunuca tüknçı vermillər, görə necədi.

d) Fellərdə işlədilməsi.
-O gedincəz məclisdən hamı dağıldı.
-Getdix'cən hava işıxlaşırdı.

e) Zərflərdə işlədilməsi.
-Dünənciəz hava bulaşdı, əmə yağmadı.
-Lələm Qasımı epeycə dannadı.

7. Qoşmalarda işlədilməsi.
-Əvə qədərciəz gedəmmədi, təntidi.
-Uşax çaya doğruca qaçıf getdi.
Göründüyü kimi, ədat ifadə edən şəkilçilər əsasən vurğusuzdur.

Modal sözlər. Ağbaba şivəsində modallıq yaradan sözlər çoxdur. Belə ki, modal söz¬lərin bir qismi fonetik fərqlərlə nəzərə çarpır, digər qismi isə ədəbi dildə işlənməyən söz¬lərdir. Məsələn: başını nə ağrıdım, qadam saŋa gəlsin, açığı, mənim vadıma görə və s.

Modal sözlərin aşağıda qeyd olunan məna növlərinə rast gəlinir:

1. Gerçəkliyin uyğunluğunu təsdiq edənlər: həlvət, həlvətdə, həlvətdə kin, həqqətən.
-Həlvətdə kin, o atasının tərəfin saxlıyacax.
-Həqqətən, o uşax irəhmətdix' babasına çox oxşuyur.

2. Gerçəkliyə şübhə, güman bildirənlər: toba, illahım, olsun kin, dəsən, bəlkəm, bərkəm, nə deyim və s.
-Olsun kin, Nəsir də bavasının öldüyünü eşitmiyif hələ.
-Bəlkəm, böūn Hajıxalılın nəvəsini göndərəx quzuya, azat günüdü, dərsi də yoxdu.

3. Cümlədə ifadə olunan fikrə özünün və başqasının şəxsi münasibətini bildirənlər: mənim vadıma görə, sən bilən, mən bilən, mā görə və s.
-Mənim vadıma, buyıl kış uzun sürəcəx'.
-Mā görə, onu heş toa da çağırmasan, yaxşı olar.

4. Gerçəkliyə münasibət bildirənlər: bir qaydadı, ədətdi, ədədimizcə və s.
-Ədətdi, Ağbavada qızı gəlin köçürəndə avcına pul qoyullar.
-Düzü, mənim bu işdən xavarım yoxuydu.

5. Nəticə və davamçılıq bildirənlər: başını nə ağrıdım, baş ağrısı olmasın, sözün açığı və s.
-Başıŋı nə ağrıdem, bu işdən mənim axlım heş bir şey kəsmer (Göllü kəndi).
-Sözün açığı, mən belə işdərə heş qoşulmamışam, qoşulmaram da.

6. Sıra və ardıcıllıq bildirənlər: birimci, ikimci, birimcisi, ikimcisi, əvvələn və s.
-Əvvələm, məni bu işə qatma, ikimcisi də onnan qohumux..
-Birimcisi, Səlim bunu bacarammaz, ikimcisi də, o boş döl.

Bəzən modal sözlərlə ədatların birgə işlənməsi də nəzərə çarpır. Məsələn: demə ki, deməynən ki, bəlkəm də və s.
-Deməynən ki, bu işdən başım çıxmer (Quzukənd kəndi).

Nida. Ağbaba şivəsində işlənən nidaların bəzi fonetik xüsusiyyətləri vardır. Ədəbi dilimizdə işlədilən nidalardan o qədər fərqlənmir. Nidaların aşağıda qeyd olunan məna növləri vardır:

1. İstehza bildirənlər: ayhay, oho, bah.
-Ayhay! Heş görüfsən şofer Nağı nahar eləməmiş maşını xoddasın!
-Oho! Bir işimiz də artdı, bunnan sōram.

2. Təəccüb, heyrət bildirənlər: bıy, ədə, ə, nə.
-Nə, işə bax ey! Taha yaşdının sözünü eşitmillər.
-Bu nədi, ə! Belə də kış olar.

3. Təəssüf, etiraz, ikrah hissi bildirənlər: bix', ax, pəhə, hayıf.
-Bix'! Əlimi yağ dağladı.
-Ax! Vaxtı nə tez ötürdüx', qədrini bilmədix' günnərin.

4. Qorxu, iztirab, təşviş, ağqı bildirənlər: boy//buy, ba-ba-ba, bah-bah-bah.
- Bah-bah-bah! Dəsən dolu tüşəcəx'.
-Eh! Bu uşax da bizi təngə gətirdi, tamam.

5. Şadlıq, təqdir, razılıq, sevinc bildirənlər: hurrey, vurrey, bəh-bəh.
-Bah-bah! Nə gözəl havadı, adamın içəri girməyi gəlmir..
-Hurrey! Gəlini gətdilər, odu maşınnar göründü.

6. Çağırış, müraciət bildirənlər: ədə, əşşi, hey, ayə, a kişi, ağız.
-Ədə! Gə bir dədəni bostannan çağır.
-Ağız! Gö mənim başıma bu uşax nə gətirif, gedif Qolley Muradın qızını qaçırıf.

Göründüyü kimi, çağırış ifadə edən nidalar bir qayda olaraq xitablarla birlikdə işlənir və müraciət bildirir.

Məqalədə Ağbaba şivəsində işlənən köməkçi nitq hissələri (ədat və modal sözlər) və nida haqqında məlumatlar verilmişdir.

**KAYNAKÇA**

Azərbaycan dilinin qərb qrupu dialekt və şivələr. Bakı, 1967.
Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2004.
Qurbanov A. Qərbi Azərbaycanın Cücəkənd şivəsi. Bakı, 2004.